Biz, ümumiyyətlə, bu yeni dövrdə xarici siyasət istiqamətində yeni üfüqlər açmalıyıq. Əgər əvvəlki dövrdə bizim xarici siyasətimizin əsas istiqaməti Ermənistan-Azərbaycan münaqişəsinin həlli idisə, bu gün artıq bu məsələ demək olar ki, gündəlikdə durmur. Ona görə xarici siyasətimizin yeni istiqamətləri üstünlük təşkil etməlidir. Biz dünyanı narahat edən problemlərin həllində daha fəal olacağıq, o cümlədən iqlim dəyişikliyi ilə əlaqədar. Nəzərə alsaq ki, COP29-un ev sahibi və sədri olacağıq, eyni zamanda, dünyada islamofobiyaya qarşı mübarizədə ön sıralarda olmalıyıq. Neokolonializmə qarşı mübarizə aparan ölkələrin yanında olmalıyıq. Neokolonializmi və o eybəcər tarixdən qalan amili Yer üzündən tamamilə silmək üçün öz dəstəyimizi göstəririk və göstərəcəyik. Bunu neokolonializmin başında duranlar da bilsinlər ki, onlar əbəs yerə bizimlə soyuq savaşa çıxıblar. Biz geridə qalmayacağıq, biz heç vaxt müdafiə mövqeyində olmamışıq. Bizə qarşı atılan addımlara adekvat addım atacağıq və bizə qarşı məkrli planlar hazırlayanlar, əminəm ki, peşman olacaqlar.

Nəhayət, Azərbaycan-Ermənistan münasibətləri. Mən çıxışımın sonunda bu məsələyə təsadüfən toxunmuram. Hesab edirəm ki, bu məsələnin əhəmiyyəti süni şəkildə şişirdilir. Ermənistanın havadarları daim bu məsələni müzakirə etmək istəyirlər, öz səylərini göstərmək istəyirlər, deməli, yorğanı öz tərəflərinə çəkmək istəyirlər, vasitəçi olmaq istəyirlər. Birincisi, vasitəçi olmaq üçün sən gərək heç olmasa üzdə bitərəf olasan. Sənin qəlbində nə var, biz bilirik. Amma heç olmasa üzdə, diplomatik qaydalara riayət etməlisən. Bizə bu məsələdə vasitəçi lazım deyil. Mən bunu demişəm, bu yüksək kürsüdən bir daha demək istəyirəm. Biz öz məsələmizi həll etmişik. Ermənistanla sülh müqaviləsinin imzalanmasının da təşəbbüskarı biz olmuşuq. Beş məlum prinsipin də müəllifi biz olmuşuq. Sülh müqaviləsinin mətnini də biz yazmışıq, Ermənistan tərəfinə göndərmişik. İndi Ermənistan beynəlxalq hüququn normalarına riayət etmək istəyirsə, bu müqavilə imzalanacaq. İstəmirsə, yenə də bizə qarşı əsassız iddialar irəli sürüləcəksə, bu müqavilə imzalanmayacaq, ancaq Azərbaycan üçün heç nə dəyişməyəcək. Mən artıq dedim, bizim qarşımızda duran çağırışlara, bizə qarşı aparılan çirkin siyasətə biz onsuz da hazır olmalıyıq. Ona görə hesab edirəm ki, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesi beynəlxalq gündəlikdən düşməlidir. Çünki yerindən duran bu məsələ ilə məşğul olmaq istəyir, gedin, öz işinizlə məşğul olun. Ona görə mən bu mövzuya, ümumiyyətlə, çox vaxt ayırmaq istəmirəm, çünki buna dəyməz. Biz öz məsələmizi həll etmişik. Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndideyik! Bu yeni dövr uğurla başlayır. Əminəm ki, uğurla da davam edəcək. Bu yolda hamımıza uğurlar, yolumuz açıq olsun!

***

Bununla da təntənəli andiçmə mərasimi başa çatdı.

***

Fevralın 14-də andiçmə mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabana gəlib müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət edərək xatirəsini ehtiramla yad ediblər, məzarı önünə gül dəstələri qoyublar.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin məzarlarını ziyarət ediblər və üzərinə gül dəstələri düzüblər.

Həmin gün Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva xalqımızın müqəddəs and yeri olan Şəhidlər xiyabanını da ziyarət ediblər.

Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla yad edərək, "Əbədi məşəl" abidəsinin önünə gül dəstələri qoyublar.

# “Dəmir yumruq”lu və Zəfər bayraqlı lider

**Bu gün artıq böyük qürur hissi ilə, demək olar ki, 7 fevral 2024-cü ilin növbədənkənar prezident seçkiləri Azərbaycan tarixinə Zəfər seçkisi kimi daxil olmuşdur. Xalqımızı 2020-ci ildəki 44 günlük Vətən müharibəsində və 2023-cü ilin sentyabr ayındakı bir günlük lokal xarakterli antiterror tədbirlərində qazandığı tarixi Zəfəri böyük birlik və mütəşəkkillik şəraitində başa çatdırdığı 7 fevral prezident seçkiləri ilə qəti şəkildə möhkəmləndirmişdir.**



XXI əsrin dünya liderləri arasında xüsusi yeri və mövqeyi olan, öz xalqına tarixi zəfərlər qazandırmış cənab İlham Əliyevin 2024-cü il fevralın 7-də yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə müstəqil dövlətimiz həm də Zəfərdən - Zəfərlərə doğru yeni və etibarlı təminat almışdır. Bu mənada xalqımız və ölkəmiz 7 fevral 2024-cü ilin növbədənkənar prezident seçkiləri ilə müstəqillik tariximizin indiyə qədərki möhtəşəm tarixi inkişaf yoluna yekun vurmuş və daha böyük inkişafın geniş üfüqlərini nümayiş etdirən yeni dövrə qədəm qoymuşdur.

Azərbaycan Respublikasına uğurla rəhbərlik edən, ölkəmizi və xalqımızı yeni tarixi inkişaf mərhələsinə çatdırmış, 7 fevral seçkilərində qazandığı möhtəşəm qələbə ilə tariximizə silinməz izlər salmış, 20 illik inkişafın möhtəşəm hesabatını təqdim edən İlham Əliyev həm də daha böyük gələcəyə təminat verə bilən lider olduğunu da təsdiqləmişdir.

Azərbaycan tarixində xüsusi mərhələ olan 2003-2023-cü illər Prezident İlham Əliyevin siyasi hakimiyyətinin birinci dövrünün epopeyası, 7 fevral 2024-cü il seçkilərində qazanılmış tarixi qələbə isə Ali Baş Komandanın daha böyük gələcəyə çağırışlarını ifadə edən manifestidir. Bu, müstəqil dövlətçilik manifestinin ideya müəllifi uzaqgörən dövlət xadimi, Ümummilli Liderimiz Heydər Əliyev, baş qəhrəmanı və böyük sükançısı isə müzəffər Ali Baş Komandanımız İlham Əliyevdir. Bütün bunlara görə 7 fevral 2024-cü il prezident seçkiləri müstəqillik tariximizin möhtəşəm yekunu, yeni tarixi epoxanın böyük başlanğıcı və paroludur. Dünyanın gözü qarşısında 7 fevral seçkilərində mühüm tarixi qələbə qazanmış Azərbaycan xalqı böyük qürur hissi ilə İlham Əliyevə səs verməklə özünün yeni zəfərlər vəd edən daha böyük gələcəyinə mandat almışdır.

Daşıdığı dərin mənaya və zərurətə görə 7 fevral 2024-cü il prezident seçkilərini Azərbaycan tarixində yalnız Ulu Öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə gəldiyi 3 oktyabr 1993-cü il seçkiləri ilə müqayisə etmək olar. Azərbaycanda dərin böhranların yaşandığı, müstəqilliyin itirilmək təhlükəsinin meydanda olduğu həmin məsuliyyətli sınaq dövründə xalqımız birmənalı şəkildə zəngin təcrübəyə malik olan, dünya şöhrətli görkəmli dövlət xadimi Heydər Əliyevin ölkəmizi xilas edəcəyinə böyük ümid və inam bəsləmişdir. Bu baxımdan 3 oktyabr 1993-cü il seçkilərində xalqımız Heydər Əliyevin simasında öz taleyinə, sabahına səs vermişdi. Tarix Heydər Əliyevin xilaskarlıq missiyasının timsalında xalqımızın nə qədər müdrik olduğunu sübut etmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyev dövlət müstəqilliyimizi itirilmək təhlükəsindən xilas etmək və inkişafın növbəti mərhələsinin möhkəm təməllərini yaratmaqla tarixin gedişatını dəyişdirməyi bacardığını isbat etmişdir.

Məlum olduğu kimi, hazırkı 7 fevral 2024-cü il seçkiləri isə 3 oktyabr 1993-cü il seçkilərindən fərqli olaraq, müstəqil dövlətimizin böyük sürətlə inkişaf etdiyi, ölkəmizin Qarabağ müharibəsində tarixi Zəfər qazandığı, ərazi bütövlüyümüzün və suverenliyimizin tam təsdiq olunduğu bir şəraitdə keçirilmişdir. Xalqımız 3 oktyabr 1993-cü il seçkilərində dövlət müstəqilliyimizi itirməmək və möhkəmləndirmək üçün Heydər Əliyevlə müqayisə oluna bilən digər bir lider görmədiyi kimi, 7 fevral 2024-cü il seçkilərində də ölkəmizi qəlib gətirdiyi Zirvədə qoruyub saxlamaq və yeni zirvələrə doğru aparmaq bacarığında da İlham Əliyevdən başqa heç bir alternativ namizəd haqqında fikirləşməli olmamışdır. Bu mənada Azərbaycan xalqı 3 oktyabr 1993-cü ildə hansı böyük inamla prezident seçkilərinə getmişdisə, 7 fevral 2024-cü il seçkilərində də həmin qətiyyətlə və eyni qürur hissi ilə öz sözünü demişdir. Ona görə də 3 oktyabr 1993-cü il prezident seçkilərində görkəmli dövlət xadimi Heydər Əliyevin ölkə rəhbəri seçilməsi ilə müstəqilliyini itirmək təhlükəsinin aradan qalxmasını bayram edən xalqımız 7 fevral 2024-cü il seçkilərində də müzəffər Ali Baş Komandan İlham Əliyevə mandat verməklə müstəqil dövlətimizin Zəfərdən-Zəfərlərə doğru inkişaf edəcəyinə böyük inamının real təntənəsini yaşamışdır. Bu cəhətdən dövlətçilik baxımından Heydər Əliyevin dəmir iradəsi ilə İlham Əliyevin “dəmir yumruğ”u bir-birini tamamlayır və daha da gücləndirir. Bütün bunlar isə Heydər Əliyev - İlham Əliyev epoxasının Azərbaycanın çoxəsrlik tarixində yeni bir tarixi dövr olduğunu əyani şəkildə nümayiş etdirir.

Azərbaycan Prezidenti İlham Əliyev XXI əsrin dünya liderlərindən biridir. Müstəqillik dövründə yaranmış yeni dövlətlərdən heç birinin prezidenti İlham Əliyev qədər öz xalqına böyük tarixi zəfərlər qazandıra bilməmişdir. Belə ki, bəzi ölkələrdə iqtisadiyyat, digərlərində turizm və nəqliyyat, başqa birində aqrar sahə, yüngül sənaye sahələrindən ikisi-üçü üstünlük qazandığı halda, Azərbaycan Respublikasında Prezident İlham Əliyevin rəhbərliyi ilə cəmiyyət həyatının bütün sahələri yüksək templərlə inkişaf etməkdə davam edir. Qədim neft ölkəsi olan Azərbaycan da bu gün dövlət büdcəsinin formalaşmasında qeyri-neft sahələri: aqrar sektor, nəqliyyat - logistika, turizm, xidmət sahələri xüsusi çəkiyə malikdir. Həm də ölkəmizdə bütün sahələr dəqiq proqnozlaşdırılmış Dövlət proqramları və özəl sektorun birgə iştirakı ilə məqsədyönlü şəkildə inkişaf etdirilir.

Prezident İlham Əliyev uzaqgörən rəhbər kimi bu günün reallıqlarını obyektiv şəkildə qiymətləndirdiyi kimi, sabahın üfüqlərini də doğru-düzgün proqnozlaşdıran liderdir. Ona görə də Azərbaycan Respublikasında bütün sahələr üzrə davamlı və dayanıqlı inkişaf təmin olunmuşdur. Müstəqil Azərbaycan dövlətinin irəliyə doğru inkişafının əsasında Prezident İlham Əliyevin yüksək idarəetmə bacarığı dayanır. Çoxillik uğurlu dövlətçilik təcrübəsi ilə, o, sözün əsl mənasında, böyük siyasətdə olduğu kimi, böyük idarəetmə sahəsində də məharətli bir qrossmeystr olduğunu nümayiş etdirir.

Prezident İlham Əliyev müstəqil siyasət həyata keçirən liderdir. “Sözümüz imzamızdır” devizi İlham Əliyevin sözü ilə özünün, ideyası ilə iradəsinin möhkəm bir vəhdət təşkil etməsinin təsdiq olunmuş tezisidir. Dövlət başçısının möhkəm daxili-mənəvi müstəqilliyi onun siyasi müstəqilliyinin möhkəm bünövrəsidir. Bu mənada Prezident İlham Əliyevin müstəqil siyasət həyata keçirməsi Azərbaycan Respublikasının müstəqil dövlətçiliyinin əsas təminatıdır. Müstəqil Azərbaycan dövləti dünyanın heç bir blokundan və ya dövlətindən asılı deyildir. Prezident İlham Əliyevin hesabat verdiyi yalnız bir ünvan vardır ki, o da dərin sədaqətlə və böyük bacarıqla rəhbərlik etdiyi Azərbaycan xalqıdır. Xalqın dönməz dəstəyini qazanmaq İlham Əliyevin müstəqil dövlətçilik siyasətinin əsasını təşkil edir.

Ölkədaxili siyasətlə xarici siyasəti üzvü surətdə əlaqələndirmək baxımından da İlham Əliyev mahir dövlət xadimidir. Çünki Prezident İlham Əliyevin xarici siyasətdə də, daxili siyasi gedişatda da müqəddəs hesab etdiyi yalnız bir marağı vardır ki, o da Azərbaycan xalqının milli maraqlarından və müstəqil ölkəmizin dövlətçilik mənafelərindən ibarətdir. Ölkəmizin daxili və xarici siyasəti bir yerdə, bütövlükdə, Azərbaycan idealına həsr olunmuşdur. Prezident İlham Əliyev Azərbaycan idealının şərəfini Birləşmiş Millətlər Təşkilatının mötəbər xitabət kürsüsü, beynəlxalq təşkilatların tribunaları, dünya dövlətləri liderlərinin danışıqlar masası səviyyəsinə qaldırmışdır. İlham Əliyevin daxili siyasətinin baş qəhrəmanı, xarici siyasətinin isə əsas strategiyası Azərbaycan idealından ibarətdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqımızın gözündə ən uca məqam olan müzəffər Ali Baş Komandan statusu qazanmışdır. Məlum olduğu kimi, müzəffər Ali Baş Komandan statusunu, o, 44 günlük Vətən müharibəsindəki, sözün əsl mənasında, təkrarsız qəhrəmanlığı ilə qazanmışdır. Sərkərdəsi olduğu Azərbaycan Ordusunu hərbi cəhətdən düzgün istiqamətləndirən Ali Baş Komandan İlham Əliyev informasiya cəbhəsində təkbaşına apardığı müharibənin də yenilməz qəhrəmanıdır. Bu mənada “dəmir yumruq” Ali Baş Komandanın həm müharibə cəbhəsindəki və həm də informasiya müharibəsindəki dəmir iradəsinin simvoludur. Ali Baş Komandan İlham Əliyev hər iki cəbhənin: real döyüş cəbhəsinin və həm də informasiya müharibəsinin qalibidir. Prezident İlham Əliyev beynəlxalq münasibətlərdə də, ölkədaxili siyasətdə də qalibdir. Müzəffər sözü - qalib sözünün sinonimidir. Bu vaxta qədər ki, çoxcəhətli fəaliyyətinin bütün istiqamətlərində olduğu kimi, 7 fevral 2024-cü il seçkilərində də İlham Əliyev, sözün əsl mənasında, qalibiyyət nümunəsi göstərmişdir. Bu isə artıq Azərbaycan Respublikasının bütün ərazisində dalğalanmaqda olan Zəfər bayraqlarının əbədiyyət qazanmasının təntənəsidir.

Dünya şöhrətli görkəmli qırğız yazıçısı Çingiz Aytmatov hələ XXI əsrin əvvəllərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdə yüksək liderlik xüsusiyyətlərinin olduğunu aşağıdakı kimi ifadə etmişdir: “İlham Əliyev XXI əsrin lider etalonudur”.

Doğrudan da İlham Əliyev özünün çoxcəhətli uğurlu fəaliyyəti, ölkəsinə və xalqına qazandırdığı böyük qələbələri, xarakterindəki müstəqil mövqeyə malik olmaq xüsusiyyəti, möhkəm siyasi iradəsi etibarilə yeni tarixi epoxanın liderlik missiyasına nümunədir. Bu cəhətdən 7 fevral 2024-cü ildə Azərbaycan xalqının dünyaya nümayiş etdirdiyi birlik və mütəşəkkillik qalib liderə bəslənilən möhkəm inamın canlı təntənəsidir. 7 fevral 2024-cü ildə seçki məntəqələrinin qarşısındakı sıralar və növbələr dərin mahiyyəti etibarilə xalqımızın Prezident İlham Əliyevə bəslədiyi sarsılmaz inamla böyük ümumxalq vəhdətinin ifadəsidir.

Prezident İlham Əliyev “dəmir yumruq”lu və Zəfər bayraqlı Azərbaycan lideridir.

Möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandanımız İlham Əliyevi növbədənkənar seçkilərdə qazandığı qanunauyğun növbəti böyük qələbə münasibəti ilə ürəkdən təbrik edir, müstəqil Azərbaycan dövlətinin, xalqımızın daha xoşbəxt gələcəyi yollarında möhtərəm liderimizə yeni-yeni uğurlar arzulayıram.

**İsa HƏBİBBƏYLİ**
**AMEA-nın prezidenti, Milli Məclisin deputatı, akademik**
*“Xalq qəzeti”*

# AMEA-nın prezidenti Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyi ilə bağlı tədbirdə çıxış edib



**Fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyi ilə bağlı tədbir keçirilib.**

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov, Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov, digər rəsmi şəxslər və ictimaiyyət nümayəndələri tədbirdə iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət ediblər. Abidə önünə güllər düzülüb, Ulu Öndərimizin xatirəsinə dərin ehtiram ifadə olunub.

Tədbir Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında davam edib.

Səlahiyyətli nümayəndəyə, həmçinin dövlət və hökumət nümayəndələrinə Sarayın foyesində Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən muxtar respublikanın 100 illiyi ilə bağlı hazırlanmış veb-saytı, poçt markası, posterlər təqdim edilib.

"Şərq qapısı" qəzeti tərəfindən təşkil olunmuş fotosərgidə tədbir iştirakçıları muxtar respublikanın 100 illiyi ilə əlaqədar, Naxçıvanın zəngin təbiətini, çoxəsrlik tarixini və təkrarsız abidələrini əks etdirən fotolara baxıblar.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli çıxış edərək Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban Əliyevanın, Baş nazir Əli Əsədovun, eləcə də digər rəsmi şəxslərin muxtar respublikanın 100 illik yubileyi münasibətilə təbriklərini çatdırıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov çıxışında bildirib ki, "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin keçirilməsi haqqında" Prezident İlham Əliyevin Sərəncamı muxtariyyətin Azərbaycan dövlətçiliyində oynadığı rola verilən yüksək qiymətdir.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov qədim, zəngin, çoxəsrlik tarixə, mədəniyyətə, dövlətçilik ənənələrinə malik və "Şərqin qapısı" adlandırılan Naxçıvanın keçdiyi çətin, eyni zamanda, şərəfli inkişaf yolundan bəhs edib.

Tədbirdə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti İsa Həbibbəyli çıxış edərək yeni tarixi mərhələdə Muxtar respublikanın əldə etdiyi nailiyyətlərdən danışıb.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayevin və AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi Hacıfəxrəddin Səfərlinin çıxışları dinlənilib. Qeyd olunub ki, Ümummilli Lider Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı Prezident İlham Əliyev Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının inkişafına hər zaman böyük həssaslıqla yanaşıb, zəngin mədəniyyətə, çoxəsrlik dövlətçilik ənənələrinə malik bu qədim diyarın muxtariyyət tarixinin öyrənilməsinin və təbliğinin zəruriliyini mühüm vəzifə kimi qarşıya qoyub.

Sonra Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyinə həsr olunmuş videoçarx və Naxçıvan Televiziyasının hazırladığı "Ulu torpaq, Ulu Öndər" filmi nümayiş etdirilib.

Tədbir bədii hissə ilə davam edib.

## Akademik Roin Metreveli akademik İsa Həbibbəyliyə təbrik məktubu ünvanlayıb



**Gürcüstan Milli Elmlər Akademiyasının prezidenti akademik Roin Metreveli AMEA-nın prezidenti akademik İsa Həbibbəyliyə Prezident İlham Əliyevin yenidən ölkə başçısı seçilməsi münasibətilə təbrik məktubu ünvanlayıb.**

**Məktubda deyilir:**

*"Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti cənab İsa Əkbər oğlu Həbibbəyli!*

*İlham Heydər oğlu Əliyevin növbədənkənar prezident seçkilərində qazandığı haqlı qələbəsi münasibətilə Gürcüstan Milli Elmlər Akademiyası adından təbriklərimizi qəbul edin!*

*Sizi Azərbaycan xalqı üçün növbəti tarixi gün münasibətilə təbrik etmək istəyirik! Ölkənizin müstəqilliyi bərpa olunduqdan sonra prezident seçkiləri ilk dəfə Azərbaycanın bütün ərazisində keçirilib!*

*Arzu edirik ki, seçkilərin nəticələri dost və qardaş Azərbaycan xalqı üçün, ölkələrimiz arasında münasibətlərin dəstəklənməsi və möhkəmlənməsi üçün xeyirli olsun.*

*Dövlətlərimiz kimi, iki ölkənin elmlər akademiyaları və alimləri də elmin inkişafı naminə çiyin-çiyinə çalışıb, elmi əməkdaşlığı şövqlə dəstəkləyib. Buna misal olaraq çoxsaylı elmi konfrans, seminar, görüş və digər tədbirləri qeyd edə bilərik. Əminik ki, Azərbaycan elminin başında duraraq və ənənələrə sadiq qalaraq Siz, Azərbaycan və Gürcüstan Milli Elmlər Akademiyaları arasında elmi əlaqələrin daha da möhkəmlənməsi üçün səylərinizi əsirgəməyəcəksiniz. Şübhəsiz ki, bu, hər iki qardaş ölkədə elmin inkişafı üçün səmərəli olacaq.*

*Dərin hörmətlə,*

*Gürcüstan Milli Elmlər Akademiyasının prezidenti akademik Metreveli Roin Viktoroviç".*

# Akademiyada yeniləşmə hərəkatı genişlənir





**Azərbaycan Milli Elmlər Akademiyasının Direktorlar Şurasının ilk iclası keçirilib.**

İclasda AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, AMEA Rəyasət Heyətinin üzvləri, elmi müəssisə və təşkilatların direktorları, direktor müavinləri və aidiyyəti şəxslər iştirak ediblər.

İclası giriş sözü ilə açan akademik İsa Həbibbəyli şuranın ilk iclasının əlamətdar dövrə təsadüf etdiyini, fevralın 7-də keçirilən növbədənkənar prezident seçkiləri ilə ölkəmizin yeni tarixi dövrə qədəm qoyduğunu bildirib. Qeyd edib ki, ölkəmizin 44 günlük Vətən müharibəsində tarixi Zəfər qazandığı, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğu bir şəraitdə keçirilən seçkidə xalqımız öz Liderinə səs verdi və İlham Əliyev seçkilərdə səslərin 92.12 faizini qazanaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.

Akademik İsa Həbibbəyli bildirib ki, ölkə başçısının seçkilərdə inamlı qələbəsi, beynəlxalq təşkilatların müsbət rəyləri və dövlət rəhbərinə gələn təbriklər bir daha Prezident İlham Əliyevin dünya liderlərindən biri olduğunu göstərdi.

Ölkəmizin yeni tarixi mərhələyə qədəm qoyduğunu deyən AMEA rəhbəri diqqətə çatdırıb ki, hazırda qarşımızda duran başlıca vəzifə Prezident İlham Əliyevin yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində bildirdiyi "gələcək dövr üçün milli ideyamızın və dövlətimizin yeni inkişaf strategiyasının müəyyənləşdirilməsi"ndə aktiv iştirak etməkdən ibarət olmalıdır və bu xüsusda Humanitar və İctimai Elmlər bölmələrinin alimlərinin üzərinə böyük məsuliyyət düşür. Akademik İsa Həbibbəyli dövlət başçısının sözügedən tapşırığının icrası istiqamətində AMEA-nın Rəyasət Heyətində ilkin müzakirələrin aparıldığını və milli ideyamızın və dövlətimizin yeni inkişaf strategiyasının müəyyənləşdirilməsi üçün elmi müəssisələrdə alimlərin iştirakı ilə növbəti müzakirələrin keçiriləcəyini bildirib.

AMEA-da dövlət başçısının və müasir dünya elmin çağırışları, həmçinin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"dən irəli gələrək tədqiqatların aparıldığını bildirən akademik İsa Həbibbəyli Akademiyanın hazırda yeniləşmə yolunda inamla addımladığını vurğulayıb. Qeyd edib ki, yeniləşən Akademiya istiqamətində növbəti addım kimi AMEA-da idarəetmənin və aparılan islahatların çevikliyinin artırılması, elmi müəssisələr üçün aktual olan məsələlərin geniş müzakirəsi, meydana çıxan problemlərin səmərəli həll yollarının axtarılması, AMEA-nın elmi müəssisələri arasında qarşılıqlı əlaqələrin yaradılması, təcrübə mübadiləsinin aparılması, elmi tədqiqat işlərinin müasir tələblərə uyğun aparılması üçün yeni mexanizmlərin işlənib hazırlanması, birgə elmi və elmi-texniki tədbirlərin təşkili, əmək intizamının tənzimlənməsi məqsədilə Direktorlar Şurası yaradılıb.

İclasda Direktorlar Şurasının hüquq və vəzifələri, eləcə də fəaliyyət istiqamətlərini əks etdirən Əsasnaməsi müzakirəyə çıxarılıb və Əsasnamənin təsdiq olunması üçün AMEA-nın Rəyasət Heyəti qarşısında vəsatət qaldırılıb.

İclasda həmçinin AMEA-nın Memarlıq və İncəsənət İnstitutunda əmək intizamının vəziyyəti haqqında məsələ geniş müzakirə olunub və müvafiq qərar qəbul edilib. Memarlıq və İncəsənət İnstitutunda əmək intizamı sahəsində yol verilmiş nöqsanlara görə İnsan resursları şöbəsinin müdiri, müxtəlif elmi-tədqiqat şöbələrində çalışan 4 nəfər elmi işçi tutduqları vəzifələrdən azad ediliblər. İnstitutun bir neçə nəfər əməkdaşına əmək intizamı sahəsində yol verdikləri nöqsanlara görə töhmət elan olunub.

Tədbirdə müzakirələrdə AMEA-nın vitse-prezidentləri - akademik Rasim Əliquliyev və akademik Gövhər Baxşəliyeva, həmçinin AMEA-nın müxbir üzvü Musa Qasımlı, professor İlham Məmmədzadə, tarix üzrə fəlsəfə doktoru Fərhad Quliyev və başqaları çıxış edərək fikir və təkliflərini səsləndiriblər.

Sonda bir sıra cari məsələlər müzakirə olunub.

# Azərbaycan elm tarixində yeniliklərə imza atmış akademik

**Yarımkeçiricilər fizikası sahəsində görkəmli alim, pedaqoq, elm və təhsil təşkilatçısı, ictimai xadim, Azərbaycan Respublikasının Dövlət mükafatı laureatı, fizika-riyaziyyat elmləri doktoru, professor, akademik Arif Mir Cəlal oğlu Paşayevin 90 yaşı tamam olur.**

Arif Paşayev 15 fevral 1934-cü ildə Bakı şəhərində görkəmli yazıçı, tanınmış ziyalı və ədəbiyyatşünas alim Mir Cəlal Paşayevin ailəsində dünyaya göz açmışdır. O, Odessa Elektrotexniki Rabitə İnstitutunda radiofizika ixtisası üzrə ali təhsil almış, əmək fəaliyyətinə 1957-1958-ci illərdə Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universiteti) laborant vəzifəsində başlamış, Azərbaycan Milli Elmlər Akademiyasında davam etdirmişdir. 1958-ci ildə AMEA Astrofizika sektorunda kiçik elmi işçi, 1959-cu ildən etibarən Fizika İnstitutunda kiçik elmi işçi (1959-1961), böyük elmi işçi (1966-1971), Zədəsiz ölçmə və nəzarətin fiziki üsulları və Yarımkeçiricilərdə elektromaqnit və akustooptik proseslərin fiziki-texniki problemləri laboratoriyalarının müdiri vəzifəsində (1971-ci ildən) çalışmışdır. Akademik Arif Paşayev 1996-cı ildən "Azərbaycan Hava yolları" Qapalı Səhmdar Cəmiyyətinin Milli Aviasiya Akademiyasının rektoru vəzifəsində işləyir.

Akademik Arif Paşayev 1966-cı ildə "Yüksək və ifratyüksək tezliklərdə yarımkeçiricilərin parametrlərini ölçmək üçün kontaktsız üsul və cihazların işlənməsi" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək texnika elmləri namizədi, 1978-ci ildə "Yarımkeçiricilərin tədqiqində qeyri-dağıdıcı üsulların fiziki əsasları, inkişaf prinsipləri və tətbiq perspektivləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək, fizika-riyaziyyat elmləri doktoru elmi dərəcəsi almışdır. Görkəmli alim 1989-cu ildə Azərbaycan EA-nın müxbir üzvü, 2001-ci ildə AMEA-nın həqiqi üzvü seçilmişdir.

Akademik Arif Paşayevin elmi fəaliyyətinin əsas istiqaməti yarımkeçiricilər fizikası və yarımkeçirici cihazların tədqiq edilməsidir. O,



yarımkeçirici materialların mühüm elektrofiziki parametrlərini (keçiricilik, yükdaşıyıcıların yaşama müddəti, yürüklüyü və s.) ölçmək məqsədilə yüksək tezlikli cərəyanlardan istifadə etməklə materialı zədələmədən kontaktsız ölçü üsullarının elmi əsaslarını yaratmış, müxtəlif təyinatlı çeviricilər sahəsində yeni elmi istiqamətin əsasını qoymuşdur. Alimin rəhbərliyi və bilavasitə iştirakı ilə yaradılan cihazlardan silindr şəkilli yarımkeçirici şayba və hissələrin xüsusi müqavimətinin kontaktsız ölçülməsi üçün "Siqma" seriyalı cihazı, yüksək aşqarlanmış yarımkeçiricilərin və yarımmetalların kontaktsız tədqiqi üçün "RO" seriyalı cihazı, lövhə və silindirvari nümunələrin qeyri- bircinsliyinin kontaktsız ölçülməsi üçün "BİN" seriyalı cihazları və s. qeyd etmək olar.

Akademik Arif Paşayevin elmi tədqiqat işlərinin digər bir hissəsi fotoelastik material kimi daha sadə hazırlanma texnologiyasına malik olan kristallik kvars əsasında akustooptik modulyatorun işlənilməsi məsələsinə həsr edilmişdir. O, ilk dəfə olaraq 1993-1997-ci illərdə fotoelastik mühitlərdə akustooptik qarşılıqlı təsirin xüsusiyyətlərini tədqiq edərək, bu effekti bir sıra radiofizika və radiotexnika məsələlərinin həllinə tətbiq etmişdir. Görkəmli alim siqnalların zaman təhriflərinə korreksiyasının, çevrilməsinin, tezlik modulyasiyalı siqnalların izləyici qəbulunun akustooptik üsullarını və bu üsulları reallaşdıran qurğuları sintez etmiş, onların parametrlərini hərtərəfli şəkildə araşdırmışdır. Alınmış nəticələrə dair məqalələr bir sıra xarici ölkənin nüfuzlu elmi nəşrlərində dərc edilmişdir. O, müxtəlif elektromaqnit sahələrinin keçirici mühitlə qarşılıqlı təsirinin tədqiqi nəticəsində maşınqayırma məmulatlarına cərəyan burulğanları ilə nəzarət üçün yeni üsullar və qurğular yaratmışdır. Elektron mikrometri, dərinlik nasoslarının içliklərinin diametrini və dərin deşikləri ölçmək üçün proqram təminatlı xüsusi elektron qurğular, SD-1 kondisionerlərinin diaqnostikası üçün stend və s. bu işlər sırasına aiddir. Dəqiq, inteqral miniatür çevricilərin, temperatura, təzyiqə, nəmliyə, gücə, təcilə, aşınmaya və titrəyişə həssas elementlərin yaradılması sahəsində də Arif Paşayev mühüm nəticələr əldə etmişdir. Bu elementlər gəmiqayırmada, neftmaşınqayırmada, müdafiə, tibb sənayelərində və digər sahələrdə geniş tətbiq edilir, həmçinin onlardan yüksək çevikliyə malik nəzarət sistemlərinin yaradılmasında istifadə olunur. Hərarətölçən, möhkəm gövdəli "Dalğa" qurğusu, "Tranzistor" seriyalı elektron termometr, yüksək cəldliyə malik termometr, "Dalğa" seriyalı inteqral təzyiqölçənlər və "Kremni" seriyalı elektron manometrlər, endoskopik tədqiqatlar üçün termometrlər, təzyiq və temperatur ölçənlərin tədqiqi üçün stend və s. bu qəbildən olan yeniliklərdir.

Akademik Arif Paşayevin elmi rəhbərliyi ilə Azərbaycan elm tarixində ilk dəfə olaraq radio ilə idarəolunan, pilotsuz uçuş aparatı, minaların axtarılması və zərərsizləşdirilməsi üçün radio idarəedici robot yaradılmışdır.

Akademik Arif Paşayev 1991-ci ildə avtonom hidroakustika informasiya sisteminin yaradılması sahəsindəki nailiyyətlərinə görə Azərbaycan SSR Dövlət mükafatı laureatı olmuşdur. Funksional elektronikanın müstəqil elmi istiqaməti olan neqatronika sahəsi keçən əsrin sonunda ilk dəfə olaraq akademik Arif Paşayevin elmi məktəbində aşkarlanmış və öz inkişafını tapmışdır.

Akademik Arif Paşayev 500-dən çox elmi məqalənin, 30-dan artıq kitab və monoqrafiyanın, 60-dan artıq ixtira, respublika və beynəlxalq səviyyəli patentin müəllifidir. Alimin məsləhətçiliyi və rəhbərliyi ilə onlarla elmlər doktorluğu və fəlsəfə doktorluğu dissertasiyası müdafiə olunmuşdur. O, dəfələrlə Rusiya, Ukrayna, Latviya və Estoniyada, habelə respublikamızda müdafiə olunmuş çoxlu sayda doktorluq dissertasiyası üzrə rəsmi opponent kimi çıxış etmişdir.

Görkəmli elm xadimi, akademik Arif Paşayev Beynəlxalq Nəqliyyat, Beynəlxalq Mühəndislik, Beynəlxalq Ekoenergetika, Beynəlxalq Eller, Beynəlxalq İnformasiyalaşdırma akademiyalarının akademiki və Rusiya Mühəndislik Akademiyasının fəxri üzvü seçilmişdir. O, "Azərbaycan Mühəndislik Akademiyasının xəbərləri", Milli Aviasiya Akademiyasında nəşr olunan "Elmi məcmuələr" jurnalının, "Elmi əsərlər" toplusunun, "Səma" beynəlxalq elmi-kütləvi jurnalın baş redaktorudur.

Elm sahəsindəki yüksək xidmətlərinə görə akademik Arif Paşayev Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2004-cü ildə "Şöhrət", 2009-cu ildə "Şərəf", 2014-cü ildə "İstiqlal" ordenləri ilə təltif olunmuşdur. O, 2005-ci ildə Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür. Alim Nobel mükafatı laureatı İ.V.Pavlov adına "Qızıl nişan"la, Ümumdünya Əqli Mülkiyyət Təşkilatının "Qızıl medal"ı, Akademik Y.Məmmədəliyev adına medalla, Beynəlxalq Aviasiya Komitəsinin "Qızıl medal"ı, Beynəlxalq Mühəndislik Akademiyasının "Mühəndislik şöhrəti" ordeni və başqa çoxsaylı diplomlarla təltif olunmuşdur.

Elm və texnika sahəsində böyük elmi nailiyyətlər qazanmış akademik Arif Mir Cəlal oğlu Paşayevi 90 illik yubileyi münasibətilə təbrik edir, ona möhkəm cansağlığı, elmin və təhsilin inkişafı istiqamətindəki fəaliyyətlərində uğurlar arzu edirik!

# Elementar zərrəciklər fizikası sahəsində tanınmış alim

**Bu ilin fevral ayında AMEA-nın müxbir üzvü professor Vəli Hüseynovun anadan olmasının 60 ili tamam olur.**

Yubiley bir növ hesabatdır, dönüb arxaya baxmaqdır, yaşadığın illər ərzində nələrə nail olmusan, nələri daha yaxşı etmək olardı...

Elmlə məşğul olan insanlar üçün isə bu hesabat daha da çətin və məsuliyyətlidir. Fikirləşirsən ki, mən zəhmət çəkdiyim illərdə hansı yeniliklərə imza atmışam, elmimizə hansı töhfələri vermişəm, nə edə bilərdim ki, etməmişəm...

Bu suallar demək olar ki, elmi axtarışlarla məşğul olan alimlərin hər birini düşündürür. Belə alimlərdən biri də ömrünün otuz ildən çoxunu elmi axtarışlara sərf edən, yorulmadan fizika elminin çətin sahələrindən olan nüvə fizikasının ayrıca bölməsi - elementar zərrəciklər fizikası ilə məşğul olan AMEA-nın müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor Vəli Hüseynovdur.

Vəli Allahverdi oğlu Hüseynov 1 fevral 1964-cü ildə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Behrud kəndində anadan olmuşdur. 1981-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin fizika fakültəsinə qəbul olmuş, 1984-cü ildə Praqa və Bratislava Universitetlərində və Brno Atom Elektrik Stansiyasında istehsalat praktikası keçmiş, elə həmin ildə də Azərbaycan SSR Təhsil Nazirliyinin göndərişi ilə Azərbaycan Dövlət Universitetindən M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin fizika fakültəsinin 3-cü kursuna köçürülmüş, 1988-ci ildə həmin fakültəni "Fizika" ixtisası üzrə bitirmişdir.

O, 1990-cı ildə Moskva Dövlət Universitetinin əyani aspiranturasına daxil olmuş, 1994-cü ildə aspiranturanı "Nəzəri fizika" ixtisası üzrə bitirərək "Xarici maqnit sahəsində neytrino-lepton prosesləri" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək, fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsini, 2003-cü ildə Bakı Dövlət Universitetində "Xarici maqnit sahəsində lepton prosesləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcələrini almışdır. 2012-ci ildən professordur.

2007-ci ildən AMEA-nın müxbir üzvüdür, 2023-cü ildə isə Beynəlxalq Astronavtika Akademiyasının müxbir üzvü seçilmişdir. 2003-2010-cu illərdə Naxçıvan Dövlət Universitetinin elmi işlər üzrə prorektoru, 2004-2010-cu illərdə eyni zamanda Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun Fiziki Tədqiqatlar Laboratoriyasının rəhbəri olmuşdur.

Vəli Hüseynov nüvə fizikasının ayrıca bölməsi olan elementar zərrəciklər fizikası, sahələrin kvant nəzəriyyəsi, astrofizika və kosmologiya sahələrində elmi tədqiqatlarla məşğul olur. Onun elmi işləri xarici maqnit sahəsində, o cümlədən ifratgüclü maqnitləşmiş ulduzlarda neytrino və antineytrinoların iştirakı ilə gedən lepton proseslərinin, bu proseslərdə ortaya çıxan polyarlaşma effektlərinin və spin asimmetriyalarının, adi neytron ulduzlarının, maqnitarların və ifratyenilərin qızma və soyuması ilə bağlı məsələlərinə, ağır neytral bozonların və Hiqq bozonunun xassələrinin tədqiqinə həsr olunub. Son elmi tədqiqat işləri isə aşağı enerjili neytrino və antineytrinoların, o cümlədən kosmik relikt neytrino və antineytrinoların detektə olunmasına, relikt neytrino və antineytrino teleskopunun qurulması layihəsinin hazırlanmasına, aşağı enerjili neytrino və antineytrinoların enerjisinin gücləndirilməsi və enerjinin neytrino və antineytrinolar vasitəsilə uzaq məsafələrə ötürülməsi və kristaldaxili güclü elektrik sahələrinin intensivliyinin təyin edilməsi kimi məsələlərin tədqiqinə həsr olunub.



Nüvə fizikası sahəsində onun təklif etdiyi (həmmüəlliflərlə) polyarlaşmış elektron hədəflərindən istifadə etməklə neytrinoların növünü ayırd etmək üsulu yeni nəsil neytrino detektorlarının yaradılmasında öz eksperimental tətbiqini tapmış, alimin elmi nailiyyətlərini fizika üzrə Nobel mükafatı laureatları Deyvid Qross, Robert Laflin, Corc Şmut, Rusiya Elmlər Akademiyasının mərhum akademiki V.G.Kadışevskinin və digər görkəmli fiziklər tərəfindən yüksək qiymətləndirilmişdir.

Vəli müəllimin elmi nəticələrinin bir qismi ABŞ-ın İllinoys Universitetində nüvə fizikası üzrə tədris olunan "Nüvə enerji mühəndisliyi" fənninə dair "Nüvə, plazma və radiasiya elmi" adlı dərsliyə daxil edilmişdir.

O, Azərbaycanda və xarici ölkələrin nüfuzlu dövri elmi nəşrlərində və məcmuələrində dərc olunan 100-dən artıq əsərin müəllifidir. Bundan başqa, 2004-2022-ci illər ərzində Rusiya, Yaponiya, İsveç, Böyük Britaniya və Şimali İrlandiya, Almaniya Federativ Respublikası, ABŞ, Fransada keçirilmiş beynəlxalq konqres və simpoziumların fəal iştirakçısı olmuş və elmi məruzələrlə çıxış etmişdir.

Alimin elmi rəhbərliyi altında üç fəlsəfə doktoru yetişdirilmişdir, hazırda bir doktorantın məsləhətçisi və dörd dissertantın elmi rəhbəridir.

Vəli müəllim Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Respublikanın əməkdar müəllimi" fəxri adı ilə təltif olunmuş, Beynəlxalq Eynşteyn və Akademik H.M.Abdullayev adına Mükafatlara layiq görülmüşdür.

Müxtəlif illərdə Tempus, İntas, Beynəlxalq Astronomiya Birliyi, Beynəlxalq Təmiz və Tətbiqi Fizika Birliyi, Alman Tədqiqat Birliyi, Rusiya Fundamental Tədqiqatlar Fondu, Beynəlxalq Spin Fizikası Komitəsi kimi beynəlxalq təşkilatların qrantlarını qazanmışdır.

O, 73-cü Beynəlxalq Astronavtika Konqresində iştirakı ilə bağlı 2022-ci ildə Azərbaycan Respublikası Kosmik Agentliyinin fərdi səfərlər qrantına və 74-cü Beynəlxalq Astronavtika Konqresində iştirakına görə 2023-cü ildə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin müvafiq qrantına layiq görülmüşdür.

2010-2019-cu illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası sədrinin müavini vəzifəsində işləmiş, 2017-2018-ci illərdə Ali Attestasiya KomissiyasınIn sədri vəzifəsini icra etmişdir.

2021-ci ilin fevral ayından Fizika İnstitutunun Kosmik şüa mənbələrinin fizikası laboratoriyasının rəhbəridir, eyni zamanda, Bakı Mühəndislik Universitetinin Fizika kafedrasında əvəzçiliklə professor vəzifəsində fəaliyyət göstərir.

Azərbaycan Astronomiya Jurnalının və "The Baku Engineering University Journal - Physics" jurnallarının redaksiya heyətlərinin üzvüdür.

Vəli müəllim öz səmimiliyi, ziyalılığı, işgüzarlığı ilə çalışdığı Fizika İnstitutu kollektivinin hörmətini qazanmışdır.

İnstitutun kollektivi tanınmış alim pedaqoq AMEA-nın müxbir üzvü, professor Vəli Hüseynovu yubileyi münasibətilə təbrik edir, ona cansağlığı uzun ömür, elmi fəaliyyətində uğurlar və nailiyyətlər arzulayır.

**Səlimə MEHDİYEVA**
**AMEA-nın müxbir üzvü**

# AMEA və TÜBİTAK tərəfindən elan edilmiş layihə müsabiqəsinin nəticələri açıqlanıb

Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) və Türkiyə Elmi və Texnoloji Tədqiqat Şurası (TÜBİTAK) tərəfindən elan edilmiş 4-cü layihə müsabiqəsi çərçivəsində təqdim edilmiş və ilkin ekspertizadan uğurla keçmiş 62 layihə üzrə elmi ekspertiza tamamlanıb. Qeyd edilməlidir ki, hər bir layihə həm AMEA, həm də TÜBİTAK tərəfindən 2 müstəqil rəyçiyə göndərilib və ümumilikdə 4 müstəqil ekspert tərəfindən qiymətləndirilib.

**Ekspertizanın nəticələrinə əsasən, aşağıda qeyd edilən 4 layihə yüksək nəticələrlə qalib seçilib:**

| Azərbaycan tərəfindən koordinator və təşkilat | Türkiyə tərəfindən koordinator və təşkilat | Müştərək tədqiqat layihəsinin adı |
|---|---|---|
| Azər ƏHMƏDOV K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutu | Ömer ERDEVE Ankara Universiteti | Vaxtından əvvəl doğulmuş körpələr üçün optimal qulluq və müalicə növləri: OCTOPUS Layihəsi |
| Mürsəl DADAŞOV Biofizika İnstitutu | Süleyman DAŞDAĞ İstanbul Mədəniyyət Universiteti | İn vivo və in vitro Parkinson modelində son dərəcə aşağı tezlikli elektromaqnit sahələrinin terapevtik təsiri |
| Pərvin MƏMMƏDOVA Akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutu | Duygu AĞAOĞULLARI İstanbul Texniki Universiteti | Mikroorqanizm yüklü nüvə/qabıq maqnit nanohissəciklərdən istifadə etməklə dəniz suyunda və torpaqda neft dağılmalarının nanotəkmil bioremediasiyası |
| Fərid ƏHMƏDOV Radiasiya Problemi İnstitutu | Raşit TURAN Orta Doğu Texniki Universiteti | Radiasiya monitorinqi üçün yüksək effektli detektor sistemi |

# Şəki Regional Elmi Mərkəzində mühüm elmi nailiyyət

**AMEA-nın Şəki Regional Elmi Mərkəzin elmi katibi, AR ETN-in Fizika İnstitutunun dissertantı Vəfa Atayevanın "Zülal mənşəli liflər üçün təbii boyaq maddəsi kimi yarpaq toxumalarında yaranan antosianin piqmentlərinin tədqiqi" mövzusunda dissertasiya işinin və Ekoloji biofizika şöbəsinin tədqiqat istiqaməti üzrə əldə edilən ilkin nəticələrinin Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzi tərəfindən qeydiyyatı və patent verilməsi ilə bağlı iddia sənədinə dair məlumatların dərc edilməsi haqqında qərar verilib.**



"Təbii əsaslı biokompozitin alınması üsulu" adlı ixtiranın müəllifləri Şəki REM-in direktoru fizika üzrə fəlsəfə doktoru, dosent Yusif Şükürlü, elmi işlər üzrə direktor müavini, biologiya üzrə fəlsəfə doktoru Fərhad Əzizov və mərkəzin elmi katibi Vəfa Atayevadır.

Əldə edilən bioekstraktın və biokompozitin fiziki-kimyəvi tədqiqatlarının bir qismi AR ETN-in Biofizika İnstitutunun müvafiq laboratoriyalarında aparılıb və sözügedən biokompozitin əczaçılıqda, toxuma mühəndisliyində, müxtəlif yanıqlarda (şüa, trafik, yanıq, mexaniki), yaralarda, dəri xəstəliklərində, eyni zamanda kosmetologiyada tətbiqi nəzərdə tutulur. Şəki REM-də hazırda bu istiqamətdə tədqiqatların genişləndirilməsi üzrə işlər davam etdirilir.

# "Borçalı nahiyəsinin kameral təsviri" kitabı çap olunub

**Azərbaycanda Atatürk Mərkəzinin şöbə müdiri kimya üzrə fəlsəfə doktoru Nazir Əhmədlinin "Borçalı nahiyəsinin kameral təsviri" kitabı çapdan çıxıb.**




Milli Azərbaycan Tarixi Muzeyinin Elmi şurasının qərarı ilə işıq üzü görən nəşrin layihə rəhbəri və elmi redaktoru akademik Şahin Mustafayev, elmi məsləhətçisi akademik Nizami Cəfərovdur.

Nəşrdə qeyd olunur ki, 1743-cü ildə Nadir şah tərəfindən Gürcüstan vilayətinə (Kartli-Kaxetiya çarlığına) daxil edilən və 1801-ci ildə onunla birlikdə çar Rusiyasına ilhaq edilən Azərbaycan türklərinin tarixən yaşadığı Borçalıda Rusiya hökuməti tərəfindən vergi tətbiq etmək məqsədilə 1804-cü ildən başlayaraq müxtəlif vaxtlarda siyahıyaalmalar aparılmış və kameral təsvirlər tərtib edilmişdir.

Oxuculara təqdim edilən bu kitaba Borçalı nahiyyəsinin 1860-cı ilə aid kameral təsviri daxil edilib. Kitabda Borçalı nahiyyəsinin tarixi coğrafiyası, inzibati-ərazi bölgüsü, sosial-iqtisadi və demoqrafik vəziyyəti, əhalinin etnik tərkibi, məşğuliyyəti, demoqrafiyası və dövlətə ödədiyi vergilər haqqında ətraflı məlumat verilir.

# "Məhəmməd Xəlifə Aciz "Divan"ının leksikası" monoqrafiyası nəşr edilib

**AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Elmi şurasının qərarı ilə institutun Farsdilli əlyazmaların tədqiqi şöbəsinin aparıcı elmi işçisi filologiya üzrə fəlsəfə doktoru Aynurə Məmmədovanın "Məhəmməd Xəlifə Aciz "Divan"ının leksikası" monoqrafiyası işıq üzü görüb.**




Monoqrafiyada ilk dəfə olaraq XIX əsrdə Cənubi Azərbaycanda yaşayıb-yaratmış görkəmli söz ustadı Məhəmməd Xəlifə Acizin "Divan"ının leksik tərkibi, tematik, leksik-semantik söz qrupları araşdırılmış, divandan nümunə olaraq götürülmüş konkret dil faktları əsasında linqvo-psixoloji məqamlar tədqiq edilmişdir. Elmi-nəzəri dilçiliyin tədqiqinə həsr edilmiş bu monoqrafiyadan tədris proqramlarının, dərslik və dərs vəsaitlərinin hazırlanmasında yararlanmaq olar.

Qeyd edək ki, yeni nəşrin elmi redaktoru Farsdilli əlyazmaların tədqiqi şöbəsinin müdiri fil.e.d. Nəsib Göyüşov, rəyçiləri akademik Möhsün Nağısoylu və böyük elmi işçi Mustafa Əliyevdir.

**ELAN-MÜSABİQƏ**

# "Füzuli və Şərq folkloru" mövzusunda respublika elmi konfransı

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 25 yanvar 2024-cü il tarixli Sərəncamında dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 530 illiyinin qeyd edilməsi haqqında müddəalar öz əksini tapmışdır.

Məhəmməd Füzulinin yubileyinin beynəlxalq səviyyədə qeyd edilməsi milli mədəni dəyərlərin qorunmasına həmişə xüsusi diqqət və qayğı göstərmiş Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ölməz şairin 500 illiyi müstəqil Azərbaycan Respublikasında keçirilən ilk dünya miqyaslı möhtəşəm mədəniyyət və sənət bayramı olmuşdur. Ulu Öndər Heydər Əliyev ənənələrinin davamçısı olan ölkə Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı da klassik ədəbi-mədəni irsə verilən yüksək qiymətin təzahürüdür.

Məhəmməd Füzuli Azərbaycan ədəbi-bədii fikrinin inkişafında müstəsna yer tutan, Yaxın və Orta Şərq ölkələri ədəbiyyatına, bütövlükdə dünya ədəbiyyatına töhfələr verən qüdrətli sənətkardır. Məhəmməd Füzuli anadilli poeziyamızın mükəmməl nümunələrini yaratmış, Azərbaycan bədii dilini daha da zənginləşdirərək yeni zirvəyə yüksəltmişdir. Ədəbiyyat tariximizdə yaranan ikinci ən böyük ədəbi məktəb də məhz onun adı ilə bağlıdır.

Dünya ədəbiyyatının görkəmli simalarından olan Məhəmməd Füzuli irsinin öyrənilməsi daim tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Dahi şairin bədii-fəlsəfi baxışlar sistemi Şərq mədəniyyətinin, türk milli-mədəni irsinin ən parlaq nümunələri kimi həm də ümumbəşəri dəyərlər müstəvisində mühüm əhəmiyyətə malik sistem kimi müxtəlif yönlərdən araşdırılmışdır.

